Ədəbiyyat QƏZETİ
5 dekabr/ 2020

# Kamal Abdullanın əsərləri 7 cilddə

Xalq yazıçısı, akademik Kamal Abdullanın 70 illik yubileyi ərəfəsində müəllifin uzun illərdir yazıb-yaratdığı istər fundamental elmi, istər ədəbi prosesin daimi diqqətində olan bədii əsərləri, ədəbi və fəlsəfi esseləri, həmçinin elmi və elmi-publisistik məqalələri, müsahibələri, çıxışları, hətta Kamal Abdulla yaradıcılığına həsr edilmiş monoqrafiyalardan iqtibaslar, müəllifin yaradıcılığından bəhs edən məqalələrin bir hissəsi toplanaraq 7 cild halında nəşr edilib. Kamal Abdullanın "Seçilmiş əsərləri" adlanan bu cildlərin hər biri həm forma, mən də məzmun baxımından komplektləşdirilmişdir. Bu cildlərdə toplanan əsərlər və məqalələr Kamal Abdullanın çoxşaxəli yaradıcılığının və ictimai fəaliyyətinin böyük hissəsini əhatə edir.

Birinci cilddə Kamal Abdullanın üç romanı - "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi" və "Unutmağa kimsə yox", həmçinin müəllifin həyatı, elmi, bədii yaradıcılığı ilə bağlı yalnız faktlardan ibarət məlumat daxil edilib. Oxucu bu romanlarda alternativ tarix, tabu mətnlərin dekonstruksiyası, adlarını paltar kimi geyinən dərvişlər, görünməz təpələr, ruh çağıran sehrbazlar, paralel dünyalar və zamanlar ilə qarşılaşır, nəhayət, arxasınca düşdüyü hadisələrin üfüqünə çatır.

İkinci cildə müəllifin ayrı-ayrı zaman kəsiklərinin bir-birilə əlaqəsinə həsr edilmiş "Sirlərin sərgüzəşti" romanı, müəllifin uşaqlıq və yeniyetməlik dövri ilə bağlı xatirələrinin ədəbi versiyası olan "Tarixsiz gündəlik" povesti və intellektual nəsr nümunələri kimi diqqəti cəlb edən müxtəlif illərdə yazdığı seçilmiş hekayələri daxil edilib.

Üçüncü cildə müəllifin müxtəlif illərdə yazdığı şeirlər, rus klassik şairlərinin yaradıcılığından etdiyi tərcümələr, ədəbiyyatın və mədəniyyətin problematik aspektlərindən bəhs edən esselər və ölkəmizin teatr səhnələri ilə yanaşı, xarici ölkələrdə də səhnələşdirilən pyeslər daxil edilib.

Dördüncü cild müəllifin "Qorqudnamə" adı altında birləşdirdiyi elmi, publisistik əsərlərdən bəzilərini əhatə edir. Bu cildə Kamal Abdullanın xalqımızın ana kitabı "Kitabi-Dədə Qorqud" dastanının gizli qatlarından dünya xalqlarının eposları ilə müqayisəli şəkildə bəhs edən "Gizli "Dədə Qorqud", yaxud Mifdən Yazıya" kitabı, dastanın poetik özəlliklərini elmi əsaslarla şərh edən fundamental "Kitabi-Dədə Qorqud" poetikasına giriş" monoqrafiyası, Azərbaycanşünaslığın "Dədə Qorqud" dastanında təzahürünü tapmış sosial, iqtisadi, etnik, dini, milli, siyasi köklərindən bəhs edən "Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" adlı dərs vəsaiti və dastanla bağlı elmi-publisistik məqalələri, oçerkləri daxil edilib.

Beşinci cild müəllifin dilçiliyə dair yazdığı fundamental elmi əsərlərin, məqalə və tezislərin bir qismini əhatə edir. Bu cildə Kamal Abdullanın Azərbaycan mətn dilçiliyində yeni istiqamətin bünövrəsi sayılan "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı fundamental tədqiqat əsəri, "dilçi olmayanlar üçün" yazılmış "Dilçiliyə səyahət" elmi-bədii əsəri, Azərbaycan dilçiliyində mifolinqvistika xəttinin ilkin rüşeymlərini özündə ehtiva edən "Mifolinqvistikaya giriş" plan-prospekti, görkəmli alim, akademik Azad Mirzəcanzadə ilə birgə Bakı Slavyan Universitetinin magistrantları üçün oxuduğu mühazirələri və dilçiliyin, ədəbiyyatşünaslığın müxtəlif problemlərinə dair yazdığı elmi, elmi-publisistik və ədəbi-tənqidi məqalələri daxil edilib.

Altıncı cildə Kamal Abdullanın son 30 il ərzində müxtəlif qəzet və jurnallarda dərc edilən, həmçinin müxtəlif saytlara, radio və televiziyalara verdiyi ədəbi proses, sənət məsələləri, ölkədə baş verən ictimai-sosial problemlər, dövlətin multikulturalizm siyasəti və başqa mövzulara həsr edilmiş müsahibələri, elmi-publisistik məqalələri daxil edilib.

Yeddinci cildə isə Kamal Abdullanın istər bədii, istərsə də elmi yaradıcılığından bəhs edən Azərbaycanda, Türkiyədə, Rumıniyada, İranda və başqa ölkələrdə çap olunmuş elmi və elmi-publisistik tədqiqat kitablarından seçmələr, həmçinin Kamal Abdullanın yaradıcılığına müxtəlif yerli və xarici elm adamlarının həsr etdiyi tədqiqatlar, elmi məqalələr və Xalq yazıçısı, akademik Kamal Abdullanın onlara münasibətini özündə əks etdirən giriş məqaləsi daxil edilib.

Bu yeddicildlik "Seçilmiş əsərlər" Kamal Abdullanın 70 illik yubileyinə həm ən gözəl hədiyyə, həm Kamal Abdullanın oxucuları qarşısında hesabatı, həm də Kamal Abdullanın oxucularına ədəbi töhfəsidir.